# Bir yandan boşalır...

(Tofiq Abasquliyevlə bağlı xatirələrim)

O gündən bir neçə gün əvvəl idi. Natella xanım Barkaya mənə yaxınlaşdı: “Tofiq müəllimin yanına gedirik. Müəllimlərimizin ürək sözlərini ona yazılı şəkildə təqdim edəcəyik. Ürək sözləriniz varsa yazmağınızı xahiş edirik”. Onda qısaca yazmışdım: “Əziz Tofiq müəllim, Sizsiz burada xeyli darıxdırıcıdır. Sizin gülərüzünüzə, ağıllı ağsaqqal məsləhətlərinizə bizim hər birimizin ehtiyacımız var. Tezliklə Sizi – mənim böyük hörmət bəslədiyim nadir insanlardan birini işbaşında sap-sağlam görmək arzusu ilə!”.

Sonradan düşündüm ki, Tofiq müəllim haqqında daha geniş bir yazı yazım. Başladım yazı üzərində işləməyə. Yazını bitirib Tofiq müəllimin ziyarətinə getməyi planlaşdırırdım. Lakin noyabrın 14-də səhər saatlarında qəflətən gələn ağır xəbər məni çox sarsıtdı. Çox xoş əhval ruhiyyə ilə yazmağa başladığım həmin yazının ruhu dəyiməli oldu. Tofiq müəllim haqqında keçmiş zamanda yazmaq çox ağır olsa da, bu yükü də daşımaq məcburiyyətində qaldıq.

## Səmimi və etibarlı dost

Tofiq müəllimin rəhbərlik etdiyi Lüğət və ensiklopediya mərkəzinin yerləşdiyi otaqla mənim ofisim arasında cəmi 2 otaq var. Odur ki, tez-tez yollarımız kəsişirdi. Bəzən planlaşdırılmış şəkildə bir-birimizə qonaq olur, bəzən də təsadüfən dəhlizdə rastlaşırdıq. Hər dəfə görüşəndə isə mütləq ayaq saxlayar, dərdləşərdik. Tofiq müəllim hər dəfə kabinetimin qabağında keçəndə mütləq içəri girər, hal-əhval tutar, uşaqlarımı soruşardı. “Hə, mənim dostum, dağlar oğlu necədir” deyə, oğlum Aslanla xüsusilə maraqlanırdı. Çünki Aslanın kənd həyatına vurğun olduğunu bilirdi və həmişə yay vaxtlarını Gürcüstanın yaylaqlarında keçirdiyindən xəbəri vardı. Tofiq müəllim özü də kənd həyatını, dağları, yaylaqları çox sevdiyindən Aslanla xüsusi dostlaşmışdı.

## Xeyirxah məsləhətçi

“Şeir gülüstününın təkrarolunmaz çiçəyi – Serqey Yesenin” kitabı üzərində işlədiyim dövrdə Tofiq müəllimlə söhbətlərimiz olurdu. Həmin vaxtlar mənim bu mövzuda “Xəzər Xəbər” jurnalında müntəzəm yazılarımı oxuyurdu. Bir dəfə “Yaxşı olar ki, bu yazılarınızı kitab halında bir yerə yığasınız” - deyə mənə yaxınlaşdı. Mən də eyni fikirdə olduğumu bildirdim. Tofiq müəllim: “Mən bildiyim qədər Yeseninin Bakı həyatı ilə bağlı kitab yazılmayıb. Bu ilk kitab olacaq. Kitabınızda qorxmadan, çəkinmədən ilk baxışda vacib və ya qeyri-vacib görünən istənilən məsələyə öz münasibətinizi bildirin. Bir tədqiqat əsərinin səhifə baxımından deyil, orada qaldırılan məsələlər, irəli sürülən fikirlər, ideyalar baxımından genişhəcmli olması vacibdir”. Tofiq müəllimin bu məsləhəti həmin kitabın strukturunun formalaşmasında öz rolunu oynadı.

## Təvazəkar insan

Həmin vaxtlar rus dilində olan bəzi ifadələrin Azərbaycan dilinə tərcümələri ilə əlaqədar olaraq Tofiq müəllimə tez-tez müraciət edirdim. Tofiq müəllimin mükəmməl rus dili olduğu hamıya məlumdur. Kitab çapdan çıxanda minnətdarlıq bildirdiyim insanlar arasında təbii ki, Tofiq müəllim də var idi. O mənə yaxınlaşıb: “İsaxan müəllim, mən bir sözü tərcümə etdim, adımı kitaba saldınız”, deyə özünəməxsus tərzdə gülümsündü. Əslində bu bir söz deyildi. Tofiq müəllim tərcümə məsələsində mənə kifayət qədər kömək etmişdi.

## Maraqlı həmsöhbət

Tofiq müəllimlə həmsöhbət olmaq çox zövqverici bir iş idi. İlk növbədə ona görə ki, o, çox gülərüzlü bir həmsöhbət idi. İstənilən məsələyə eyni zamanda həm ciddilik, həm də sadəlik intonasiyası verə bilirdi. Onunla istənilən ciddi bir məsələni sadə bir abu-havada müzakirə etmək mümkün idi. Bu Tofiq müəllimin ətrafdakıların, demək olar ki, hamısı ilə xoş rəftarının, yaxşı münasibətdə ola bilməsinin əsas səbəblərindən biridir.

## Yaşlı gənc

Azərbaycançılığımız ağsaqqalla söhbətlərdə “ehtiyatlı olmağı” zəruri etsə də, Tofiq müəllimlə söhbət edərkən, bir qədər sərbəstlik də etmək olardı. Çünki, Tofiq müəllim yaş baxımından nə qədər yaşlı idisə, könül baxımından bir o qədər həyat eşqi ilə dolu, gənc idi. Məhz bu cəhəti Tofiq müəllimin, bir sıra ağsaqqallardan fərqli olaraq, gənclərdən, cavanlardan aralı düşməməsini təmin edirdi.

## Futbol həvəskarı

Səhv etmirəmsə, 2000-ci il idi. O vaxt Xəzər Universiteti futbol kimandası ölkə çempionatının güclülər dəstəsində oynayırdı. Biz, bir neçə nəfər, demək olar ki, komandanın bütün səfər oyunlarına gedirdik. Tofiq müəllim də çox vaxt bizimlə olardı. Bir dəfə Qusarın “Şahdağ” komandası ilə səfərdə oynamalı idik. Qusarda güclü qar yağdığından, AFFA oyunun Siyəzəndə keçirilməsinə qərar vermişdi. Mən hansı səbəbdənsə, Siyəzənə getmək istəmədim və komandanın rəisi Alı Alıyevə zarafatla dedim: “Alı müəllim, mən uzaq səfərlərə gedirəm ki, oyun vaxtı ürəkli olasınız, Siyəzən yaxındır, ona görə də mənim sizə əlavə ürək-dirək verməyimə ehtiyac yoxdur, özünüz gedin”. Bu zaman kimsə qolumdan tutdu. Tofiq müəllim idi. Gülə-gülə: “İsaxan müəllim həmişə olduğu kimi, bu oyunda da bizim ürək-dirəyimizə uşaqların xüsusi ehtiyac var, üstəlik uşaqlar elə öyrəşiblər ki, biz getməsək mütləq uduzacaqlar. Sizə isə ürək-dirəkdən əlavə, daha böyük ehtiyac var”, deyə, gülümsəyərək, baş barmağını onun yanındakı barmağa sürtməklə, mənim hər oyundan qabaq futbolçulara mükafat elan etməyimə işarə vurdu. Bundan sonra, təbii ki, Siyəzənə getməli olduq. Doğrudan da Siyəzəndə mükafat məsələsi ilə bağlı elə bir hadisə baş verdi ki, mənim orda olmağım lap yerinə düşdü.

## Ömrə də etibar yoxdu

Onun otağına getmişdim. Xeyli yorğun görünürdü. “Tofiq müəllim, çox yorğun görünürsünüz, icazə verin Sizi bir qədər işdən ayırım”, dedim və xeyli söhbət etdik. Otağı tərk edərkən yenə bir qədər “məsləhət verməyi” unutmayıb, “Tofiq müəllim, özünüzü çox yormayın, bir az dincəlin”, dedim. “Eh, İsaxan müəllim, dincələ bilirəm ki? Bir az boş

duran kimi, bunlar (barmağı ilə stolun üstündəki lüğət materiallarını göstərdi) az qalır məni dara çəksin. Ömrə də etibar yoxdur, bunu mütləq başa çatdırmalıyam, Siz cavansınız, nə qədər istəsəniz dincələ bilərsiniz", deyərək, yorğun halda məni yola saldı.

Bu hadisədən bir neçə gün sonra, möhkəm xəstələndi ... və bir daha onu görmədim.

Dünya bir qədər də boşaldı. Tofiq Abasquliyev qədər.

**İsaxan İsaxanlı**

***Mənbə:***

***"Xəzər Xəbər" (jurnal), № 306, səh.24-25, aprel, 2012.***